## Türkmən şairi Məmmədvəli Kəminə

Məmmədvəli Kəminənin (1770-1840) həyatı haqqında günümüzə özündən heç bir məlumat gəlib çıxmamışdır. Onun həyatı haqqında məlumatlar yalnız xalqın deyimlərində, əfsanələrdə qalmışdır. Ona görə də keçən əsrlərdən başlayaraq uzun illər ərzində Kəminənin yaşadığı dövr və həyatını ətraflı surətdə öyrənmək üçün türkmən alimləri xalq yaddaşından, xüsusən də Kəminənin törəmələrinin dilindən çoxlu məlumatlar yazıb toplamışlar. Bu materiallar əsasında onun tərcümeyi-halı dəqiqləşdirilmiş, şəxsi həyatı müəyyən qədər aydınlaşdırılmış və böyük şairin hansı şəraitdə yaşadığı müəyyənləşdirilmişdir. Həmin materiallara görə, Məmmədvəli Kəminə (bəzi məlumatlara görə onun adı Vəliməmməddir) türkmənlərin təkə uruğunun toxtamış bölümünün vəkil tayfasının toğlular adlı tirəsindəndir. Onun təxəllüsü olan "Kəminə" sözünün mənası fars dilindəki "kəm" sözündəndir və özünü "kiçik hesab edən, kəm sayan" demək olub, məcazi mənada "təvazökar, yoxsul, fağır" deməkdir. Şairin özünə "Kəminə" təxəllüsünü götürməsi təsadüfi olmamışdır. Şair çox yoxsul və ehtiyac içində həyat keçirdiyindən özünə bu təxəllüsü götürmüşdür. Müasirləri onu savadlı olduğuna görə həm də Molla Vəli, ya da Molla Kəminə deyə çağırarmışlar.

Kəminə 1770-ci ildə Sərəxsin ətrafında yaşayan Qaradövlət adlı kasıb bir kişinin ailəsində dünyaya gəlmişdir. O ilk təhsilini Sərəxsdə – əvvəlcə molladan, sonra isə kənd məktəbində almışdır. Onun gənclik illəri də Sərəxs və Mari ətrafında keçmişdir. Sonradan təhsilini o dövrdə Orta Asiyanın mədəniyyət, sənət, elm mərkəzi sayılan, daha zəngin ədəbi mühitə malik olan Buxara şəhərində davam etdirmişdir. Maddi imkanı çox çətin olan Kəminə təhsilini yarımçıq qoymamaq üçün Buxarada həm də işləməli olmuşdur.

Buxara həyatı Kəminəyə çox şeylər vermişdir. O, burada tanınmış müsəlman alimi Molla Töhfə ilə tanış olmuşdur. Molla Töhfə həm də Kəminənin möhkəm dostluq etdiyi şair Molla Nəfəsin müəllimi olmuşdur.

Buxaradan doğma Sərəxsə qayıdan Kəminə bir müddət burada yaşadıqdan sonra biliyini artırmaq üçün Xivəyə getmiş və dövrünün tanınmış işanlarından olan Erəli işandan dərs almış və yeddi ilə yaxın Xivədə qalmışdır.

Xivədən qayıtdıqdan sonra Kəminə çoxdan dostluq etdiyi şair Talibinin yanına – Axala getmişdir.

Şairin şeirləri janr və mövzu baxımdan rəngarəng və çoxşaxəlidir. Onun şeirlərinin əksəriyyəti türkmən klassik ədəbiyyatında ən çox işlənən qoşma formasında yazılmışdır. Bundan başqa onun klassik şeirin müxəmməs, müstəzad və s. kimi növlərində aydın və anlaşılan, yüksək bədii poetik dəyərə malik ölməz sənət nümunəsi olan bir çox şeirləri vardır. Kəminənin 14-dən artıq şeiri əruz vəznində yazılmışdır.

Kəminənin satirik şeirləri və duzlu-məzəli lətifələri də xalq arasında böyük şöhrət tapmışdır. Sonralar Kəminənin özü xalqın yaratdığı bir çox lətifələrin baş

qəhrəmanına çevrilmiş, xalqın yaratdığı bir çox lətifələr Kəminənin adına aid edilmişdir.

Kəminə uzun ömür sürmüşdür. Ömrünün sonuna qədər Sərəxsdə yaşayan şair 1840-cı ildə Sərəxsin yaxınlığındakı Cəzid Dənə deyilən kiçik qəsəbədə vəfat etmişdir.